


# Xankəndidə dövlət idarəçiliyi təmin olundu

Cəmi 23 saatlıq antiterror tədbirləri nəticəsində suverenliyini bərpa edən Azərbaycan bu tarixi nailiyyətindən ötən çox qısa müddət ərzində Qarabağ bölgəsində dövlət idarəçiliyini müvəffəqiyyətlə yerinə yetirir.

Artıq Xankəndidə dövlət strukturlarımız fəaliyyətə başlayıb və burada yaşayan erməni sakinlərin reinteqrasiyasına uğurlu start verilib.

## Ermənilər Azərbaycan vətəndaşlığını qəbul edərək dövlətimizin himayəsində yaşamaq istəyirlər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının oktyabrın 1-də yaydığı məlumatda bildirilir ki, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağ iqtisadi rayonunda fəaliyyətə başlayıblar.

Hər iki qurumun mətbuat xidmətlərinin oktyabrın 2-də verdiyi birgə məlumatda artıq reinteqrasiya prosesinə qoşulmaq məqsədilə ilkin qeydiyyata alınmaq üçün Xankəndi şəhərində yerləşən qəbul şöbəsinə 5, bölgədə keçirilmiş səyyar qəbul zamanı isə 2 sakinin könüllü şəkildə Dövlət Miqrasiya Xidmətinə müraciət etdiyi bildirilib.

Müraciət edənlərin hər biri Qarabağ iqtisadi rayonunda yaşamaq və Azərbaycan Respublikası vətəndaşlığını əldə edərək dövlətin himayəsindən istifadə etmək istədiklərini deyiblər.

Bu faktların özü də bir daha göstərir ki, onilliklərin ardından Qarabağda qanunlarımız işləməyə, vətəndaşların hüquqları təmin edilməyə, bir sözlə, normal yaşama başlanılıb.

## Bu bölgəmizdə də həyat canlanır

Sərsəm "Miatsum" ideyasının eyforiyasına qapılaraq 1988-ci ildən etibarən dinc azərbaycanlılara qarşı etnik və milli zəmində təmizləmə siyasəti həyata keçirən ermənilər Qarabağ bölgəsini separatizm yuvasına çevirmişdilər. De-yuri Azərbaycanın ərazisi olsa da, 1988-ci ildən etibarən bu bölgə de-fakto Azərbaycan qanunlarının işləmədiyi, separatizmin at oynatdığı "boz zona"ya çevrilmişdi. "Müstəqillik" elan edən, əski parçaları düzəldən, "Artsax" adlı qondarma qurum yaradan separatçılar ötən illər ərzində Qarabağı Azərbaycandan qoparmaq üçün hər cür çirkin, murdar əmələ əl atmışdılar. Ermənistan və separatçılar ərazilərimizi işğal etməkdən, azərbaycanlıları zorla öz yurdlarından didərgin salmaqdan, onlara qarşı soyqırımları törətməkdən tutmuş hər cür vəhşiliklərə getmişdilər. Qarabağla bağlı Ermənistan və separatçıların çirkin planlarının baş dəstəkçiləri isə Fransa kimi erməni dəyirmanına su tökən riyakar dövlətlər olmuşdu. Buna görə idi ki, 30 il ərzində Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları istiqamətində yol alınmamış və münaqişənin sonsuzadək sürdürülməsi kimi məkrli niyyət güdülmüşdü.

Lakin 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi ilə torpaqlarının işğalına son qoyan Azərbaycan ötən üçillik zaman kəsiyində də ardıcıl tarixi qələbələrə imza atdı. 2023-cü il aprelin 23-də Laçında sərhəd-buraxılış məntəqəsi qurmaqla ərazi bütövlüyünü bərpa edən ölkəmiz bu ilin sentyabrında keçirdiyi antiterror tədbirləri ilə suverenliyini tam təmin etdi.

Bununla da həm murdar separatizm, həm sərsəm "Miatsum", həm də qondarma "Artsax" gorbagor oldu...

## Artıq bu ərazidə Azərbaycan qanunları işləyir

İndi Qarabağ Azərbaycan qanunlarının işlədiyi, mərkəzi hakimiyyətin idarə etdiyi, dövlət qurumlarımızın fəaliyyət göstərdiyi bölgəyə çevrilib.

Hazırda Xankəndidə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məlumatında bildirilir ki, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ilkin qeydiyyatına dair müraciətlərinin yerində qəbul edilməsi və bununla əlaqədar maarifləndirmə tədbirlərinin yerində təşkili, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları isə sakinlərin sosial-humanitar ehtiyaclarının müəyyənləşdirilməsi ilə bağlı fəaliyyət göstərirlər.

Dövlət orqanları əməkdaşlarının bölgədə fəaliyyəti Qarabağda yaşayan erməni sakinlərin yerli cəmiyyətə reinteqrasiyasının daha sürətli həyata keçirilməsinə, həmçinin sosial-humanitar ehtiyaclarının qarşılanmasında səmərəliliyin artırılmasına imkan yaradacaq.

Göründüyü kimi, Azərbaycan mərkəzi hakimiyyəti Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı əməli fəaliyyət aparır.

30 ildən artıqdır ki, separatçıların girovluğunda səfalət içərisində Qarabağda yaşayan ermənisilli sakinlər də nəhayət ki, layiqli həyat şəraitinə qovuşur, onların da hüquqlarının təmini, təhlükəsizliyinin təşkili ilə bağlı mühüm işlər görülür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 4 oktyabr.- S.6.